

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 227 (23.639)

26 dekabr 2020-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qəpik


“İxrac ili” – 2020

## Xarici ticarət əlaqələrinin həcmi artır

*Xarici iqtisadi əlaqələrin inkişafı bütün dövlətlər üçün vacib istiqamətlərdən biri hesab olunur. Belə əlaqələrin yaradılması isə iqtisadi potensialla yanaşı, həm də beynəlxalq əlaqələrin necə qurulmasından asılıdır. Bu isə o qədər də sadə məsələ deyil. Müasir dünya təcrübəsi göstərir ki, bu gün belə əlaqələrin qurulması maraqlı tərəflərdən müstəqil siyasətin yürüdülməsini tələb edir. Çünki qloballaşmış dünyada hər bir ölkənin beynəlxalq səviyyədə öz maraqları var. Bu maraqların təmin olunması isə o zaman mümkün olur ki, istənilən dövlət öz xalqının milli mənafeyi üçün qəti və müstəqil qərarlar qəbul etməyi bacarsın. Dolayısı ilə yalnız müstəqil siyasət yürüdən, beynəlxalq əməkdaşlıqda etibarlı tərəfdaşa çevrilə bilən tərəflər bu və ya digər əlaqələrin qurulmasına öz töhfələrini verə bilərlər. Digər tərəfdən, bu gün xarici iqtisadi əlaqələrin səviyyəsi ölkələrin iqtisadi gücünün və beynəlxalq aləmdəki nüfuzunun əsas göstəricilərindən biri hesab olunur. Bu nüfuz beynəlxalq arenada bir çox problemlərin həllində mühüm rol oynayır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi:* ***“Azərbaycanın beynəlxalq nüfuzu, bizimlə əməkdaşlıq etmək istəyən ölkələrin sayı getdikcə artır. Azərbaycan dünyada, beynəlxalq arenada özünü etibarlı tərəfdaş kimi və etibarlı dost kimi təsdiq edə bilmişdir”.***



Bu gün beynəlxalq aləmdə ən çox diqqət edilən məsələlərdən biri xarici əməkdaşlıqda ticarət əlaqələrinin həcminin genişləndirilməsidir. Çünki iqtisadi əlaqələr çox mühüm humanitar və siyasi əhəmiyyətə malikdir. Belə ki, həmin əlaqələr bir ölkənin dünya bazarındakı yerinin müəyyənləşdirilməsindən tutmuş qlobal iqtisadi məkana inteqrasiyasına qədər böyük rol oynayır. Eyni zamanda xarici iqtisadi əlaqələrin dostluq əlaqələrinin nəticəsi kimi də diqqət çəkir. Buna görə də müasir dövrdə dünya ölkələri öz əhalisinin ümumi rifah halını yüksəltmək üçün beynəlxalq əmək bölgüsünün üstünlüklərindən maksimum yararlanmağa, bunun üçün xarici iqtisadi əlaqələrin yaradılmasına çalışırlar. Bu gün dövlətimizin apardığı məqsədyönlü iqtisadi siyasətin bir hissəsi olmaqla ticarətin, xüsusilə xarici ticarətin tənzimlənməsi, daxili bazarın qorunması, gömrük prosedurlarının sadələşdirilməsi, xarici iqtisadi əlaqələrin genişləndirilməsi, bütövlükdə, ölkəmizdə olduğu kimi, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da ticarət dövriyyəsinin artmasına, o cümlədən xarici ticarətin genişlənməsinə şərait yaradıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov muxtar respublikanın xarici ticarət əlaqələrinin genişləndirilməsinin prioritet istiqamətlərdən biri olduğuna diqqət çəkərək deyib: ***“Muxtar respublikanın iqtisadi inkişafında diqqəti cəlb edən amillərdən biri də xarici ticarət əlaqələrinin genişləndirilməsi, ixrac potensialının gücləndirilməsidir. Sahibkarlığa göstərilən sistemli dövlət dəstəyi, ixracın stimullaşdırılması ilə bağlı qəbul edilmiş qərarlar muxtar respublikada istehsal olunan məhsulların ixrac imkanlarının artmasına və xarici bazarlarda tanınmasına şərait yaratmışdır”.***

Qeyd edək ki, muxtar respublikada beynəlxalq iqtisadi əməkdaşlığın təməli xalqımızın ümummilli lideri Heydər Əliyevin 1990-1993-cü illərdə Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi dövrdə atılıb. Belə ki, qonşu İran İslam və Türkiyə respublikaları ilə yaradılmış hərtərəfli əlaqələr iqtisadi sahədə də öz uğurlu nəticələrini göstərib. Həmin əlaqələrin yaradılması ilk vaxtlarda idxal məhsulları üzərində qurulsa da, sonrakı dövrlərdə milli iqtisadiyyatın inkişafı, bunun da nəticəsində yerli məhsulların istehsal həcminin artması aparılan əməliyyatlarda müsbət balansın yaranmasına imkan verib. Ötən dövrə nəzər salsaq, görərik ki, Naxçıvan Muxtar Respublikasının xarici ticarət əlaqələrində 1992-1995-ci illər idxalın həcminin artması, əsasən, gündəlik tələbat mallarının idxalı ilə xarakterizə olunurdu. Belə ki, blokadaya salınması ilə əlaqədar iqtisadi əlaqələrin kəsilməsi, mövcud sənaye müəssisələrinin öz fəaliyyətlərini dayandırması bu dövrdə gündəlik qida məhsullarına olan tələbatın idxal hesabına ödənilməsini labüd edib. 1996-2000-ci illər isə Naxçıvan Muxtar Respublikasında xarici ticarətin formalaşdırılması dövrü kimi səciyyələnir. 2001-ci ildən başlayaraq muxtar respublikada xarici ticarət əlaqələrinin tənzimlənməsi sahəsində qanunvericiliyin yeniləşməsinə, gömrük orqanlarının işinin daha da təkmilləşdirilməsinə, bu orqan strukturlarının texniki təchizatının tam yeniləşməsinə, yerli sahibkarların maraqlarının nəzərə alınmasına, idxalın istehlak yönümlülüyünün istehsal xarakterli məhsullarla yeniləşməsinə başlanılıb. Bu dövrdə muxtar respublikanın iqtisadiyyatı ona bilavasitə təsir göstərən xarici ticarət əlaqələri ilə paralel surətdə inkişaf edib. 2001-2008-ci illərdə muxtar respublikada xarici




ticarət dövriyyəsinin artan dinamikası davam edib ki, bu da muxtar respublikanın sosial-iqtisadi inkişafı, yerli istehsal məhsullarının xarici bazarlara yol açması, xarici iş adamlarının maraq dairəsinə düşməsi, yerli sahibkarlığın daha da inkişaf etməsi ilə səciyyələnir. Xarici ticarət dövriyyəsinin ildən-ilə artması isə 2009-cu ildən müsbət saldonun yaranmasına səbəb olub və növbəti illərdə dövriyyə həcminin genişlənməsi ilə müsbət saldonun payı da artıb. Hazırkı dövrdə isə muxtar respublika iqtisadiyyatının dinamik inkişafı xarici iqtisadi əlaqələrin genişləndirilməsinə də öz təsirini göstərib. Bu əlaqələrin coğrafiyasının genişlənməsinin nəticəsidir ki, bu gün Türkiyə, İran, Rusiya, Gürcüstan, Ukrayna, Litva, Qətər, Birləşmiş Ərəb Əmirlikləri və digər ölkələrə Naxçıvandan məhsullar ixrac olunur.

Məlum olduğu kimi, 2020-ci il muxtar respublikada “İxrac ili” elan olunub. Bu il yerli istehsal məhsullarının ixrac həcmi əvvəlki dövrlə müqayisədə daha da artıb. Belə ki, Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin məlumatına görə, 2020-ci ilin yanvar-noyabr aylarında muxtar respublikada 450 milyon 839 min 200 ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınıb. İxracın dəyəri 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə artaraq 387 milyon 539 min 900 ABŞ dolları təşkil edib, 324 milyon 240 min 600 ABŞ dolları dəyərində müsbət saldo yaranıb.

Bunu da qeyd edək ki, Azərbaycanın İkinci Qarabağ müharibəsindəki qalibiyyətindən sonra Naxçıvan Muxtar Respublikası ilə ölkəmizin digər bölgələri arasında kommunikasiya əlaqələrinin yaradılması günün mühüm mövzularından birinə çevrilib. Yaxın gələcəkdə muxtar respublika ilə nəqliyyat əlaqələrinin bərpası Naxçıvanda istehsal olunan yerli sənaye və kənd təsərrüfatı məhsullarının maneəsiz olaraq ölkə və digər xarici bazarlara çıxarılmasına imkan verəcək. Bu da Naxçıvanın xarici ticarət əlaqələrinin həcminə öz müsbət təsirini göstərəcək.

✍ **Səbuhi HƏSƏNOV**

## “Sərhəd hərəkatı – dünya azərbaycanlılarının həmrəyliyinə gedən yol” mövzusunda konfrans



*“Naxçıvan” Universitetində “Sərhəd hərəkatı – dünya azərbaycanlılarının həmrəyliyinə gedən yol” mövzusunda elmi konfrans keçirilib.*

Əvvəlcə Vətən müharibəsində qəhrəmanlıqla canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransı giriş sözü ilə ali təhsil ocağının rektoru, dosent Nurlana Əliyeva açaraq bildirib ki, 1989-cu il dekabrın 31-də Naxçıvanda başlanan sərhəd hərəkatı Azərbaycan xalqının müstəqillik arzularının təcəssümü idi. Bu addım sonradan, 1991-ci ildə Azərbaycanın müstəqilliyini elan etməsi üçün keçilən yolun başlanğıcı kimi dəyərləndirilir. Bu gün bizim milli birliyimiz və Ali Baş Komandanımız cənab İlham Əliyevin qətiyyəti nəticəsində 30 ilə yaxın həsrətimizə son qoyuldu. Cəmi 44 gün ərzində şanlı Ordumuz düşmən işğalı altında olan öz əzəli torpaqlarımızı bizə qaytardı.

Universitetin Ümumi tarix kafedrasının müəllimi, dosent Elçin Zamanov “Azərbaycanlıların həmrəyliyi – milli bütövlük uğrunda mübarizənin təməl prinsipləri” mövzusunda məruzə edərək bildirib ki, ulu öndər Heydər Əliyevin ən böyük arzularından biri də dünyada yaşayan azərbaycanlılar arasında birlik və həmrəyliyin formalaşdırılması idi. Buna isə ümummilli liderimiz 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyərkən nail olmuşdur. Məhz görkəmli dövlət xadiminin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 1991-ci il dekabrın 31-ni “Dünya Azərbaycanlılarının Həmrəylik Günü” elan etmiş, həmin günün hər il bütün ölkə miqyasında dövlət bayramı kimi qeyd olunması üçün Azərbaycan Respublikasının Ali Soveti qarşısında vəsatət qaldırmışdı. 1993-cü ildə ikinci dəfə siyasi hakimiyyətə qayıdan ulu öndər xaricdə yaşayan azərbaycanlıların təşkilatlanması, məskunlaşdıqları ölkələrin ictimai-siyasi həyatında fəal iştirak etmələri məsələlərini daim diqqət mərkəzində saxlamış, onların problemlərinin həllini və hüquqlarının müdafiəsini təmin etmək üçün dövlətin imkanlarını səfərbər etmişdir. Ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə 2001-ci ilin noyabr ayında Bakıda keçirilmiş Dünya Azərbaycanlılarının I Qurultayı xarici ölkələrdə yaşayan və fəaliyyət göstərən həmvətənlərimizin ümumi məqsəd, vahid Azərbaycançılıq ideyası ətrafında birləşməsi yolunda mühüm əhəmiyyət kəsb etmişdir. Məhz o birliyin nəticəsidir ki, 44 gün ərzində yağı düşmən işğal olunmuş torpaqlarımızdan qovuldu.

Sonda “Qarabağ Azərbaycandır!” adlı sərgiyə baxış olub.

**Seyfur HACIMURADOV**

*Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyində Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin Ekologiya mühəndisliyi ixtisası üzrə IV kurs tələbələri ilə görüş olub.*

## Tələbələrlə görüş olub

Tədbiri giriş sözü ilə Ekologiya və Təbii Sərvətlər naziri Mayis Əliyev açaraq bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin hamiliklə bağlı imzaladığı müvafiq sərəncama uyğun olaraq ötən dövr ərzində “Naxçıvan Muxtar Respublikasının təbii sərvətlərinin öyrənilməsi, qiymətləndirilməsi, istifadə olunması və bu sahədə kadr hazırlığı”, “İdeyadan başlanğıca” devizi altında startap layihələrinin hazırlanması məsələləri ilə bağlı Naxçıvan Dövlət Universiteti ilə birlikdə seminar-müşavirələr keçirilib. Ali təhsil ocağının Memarlıq və mühəndislik fakültəsinin Ekologiya mühəndisliyi və Geologiya mühəndisliyi ixtisasları üzrə təhsil alan tələbələrinin praktik bilik və təcrübələrinin artırılması məqsədilə tədbirlər reallaşdırılıb.

Qeyd olunub ki, bu il noyabrın 16-dan dekabrın 30-dək olan müddətdə Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin Ekologiya mühəndisliyi ixtisası üzrə IV kurs tələbələri istehsalat təcrübəsi keçiblər. Belə ki, istehsalat təcrübəsi dövründə tələbələr Su Təmizləyici Qurğular Kompleksində, sement, daş məhsulları, eləcə də digər istehsal müəssisələrində olub, Geoloji Axtarış və Kəşfiyyat İdarəsinə, Duzdağ Fizioterapiya Mərkəzinə və Şahbuz Dövlət Təbiət Qoruğuna da ekskursiya ediblər.

Sonra tələbələri maraqlandıran suallar cavablandırılıb.

*Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti*

## Maarifləndirici seminar keçirilib

*Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzi tərəfindən “Vətəndaşların dövlət qulluğuna qəbul qaydaları” mövzusunda maarifləndirici seminar keçirilib.*

Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin sədri İsmayıl Qəribli tədbiri giriş sözü ilə açaraq bildirib ki, bu gün muxtar respublikada dövlət qulluğu sahəsi diqqət və qayğı ilə əhatə olunub, vətəndaşların müsabiqə və şəffaflıq əsasında işə qəbulu üçün hərtərəfli şərait yaradılıb. Dövlət orqanlarında altıncı-yeddinci təsnifat üzrə vakant vəzifələrin tutulması mərkəz tərəfindən müsabiqə yolu ilə həyata keçirilir. Bugünkü seminarın məqsədi vətəndaşların dövlət qulluğuna qəbulu qaydaları ilə bağlı qanunvericiliyin tələblərinin bu sahə üzrə məsul olan dövlət qulluqçularının diqqətinə çatdırılması və tətbiqinin təmin edilməsidir.

Mərkəzin əməkdaşı Orxan Abdullayev hazırlanmış slayd vasitəsilə vətəndaşların dövlət qulluğuna qəbul qaydalarını izah edib. O, dövlət qulluğuna qəbulun müsabiqə əsasında keçirildiyini bildirib, müsabiqənin test və müsahibə mərhələlərinin qanunvericiliyə uyğun şəkildə təşkili, müsabiqədən müvəffəqiyyətlə keçmiş namizədlərin vakant vəzifələrə təyin olunması, eləcə də ehtiyat kadrlar siyahısı barədə geniş məlumat verib.

Sonda geniş müzakirələr aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

*Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti*

## Ailə təsərrüfatlarımız

# Yaradılmış şərait ailə təsərrüfatlarına daha yaxşı fəaliyyət göstərməyə imkan verir

***Müasir dövrdə inkişaf etmiş ölkələrdə özəl sektorun əsası ailə təsərrüfatları və belə təsərrüfatların əsasını təşkil edən ailə biznesi üzərində qurulub. Ailə təsərrüfatlarının yaradılması və inkişafı yeni istehsal müəssisəsi yaratmadan məşğulluq problemlərini həll etdiyindən, əhali gəlirlərinin artmasına müsbət təsir göstərdiyindən son illərdə muxtar respublikamızda da ailə təsərrüfatlarının inkişafı istiqamətində sistemli tədbirlər həyata keçirilir. Belə ki, ailə təsərrüfatlarına dəstək məqsədilə “Ailə təsərrüfatı məhsulları” festivalları və yarmarkaları keçirilir, müvafiq dövlət qurumları tərəfindən ailələrdə istehsal olunan məhsulların qablaşdırılmasına, satışına köməklik edilir.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 22 noyabr və 2019-cu il 18 yanvar tarixli sərəncamları ilə “Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı” Tədbirlər planlarının təsdiq olunması, 2019-cu ilin muxtar respublikada “Ailə təsərrüfatları ili” elan edilməsi isə belə təsərrüfatların inkişafına nail olmanın dövlətimiz üçün nə qədər böyük rol oynadığını göstərir. 2020-ci ilin muxtar respublikada “İxrac ili” elan edilməsi, bu məqsədlə Ali Məclis Sədrinin 2020-ci il 6 mart tarixli Sərəncamı ilə “Naxçıvan Muxtar Respublikasında ixrac potensialının və ixraca dövlət dəstəyinin artırılması ilə bağlı Tədbirlər Planı”nın təsdiq olunması isə istehsalçılar üçün yeni imkanlar təqdim edir.



Qeyd edək ki, bu gün muxtar respublikada ailə təsərrüfatlarının inkişafı üçün hərtərəfli şərait mövcuddur. 2019-cu ildə Naxçıvan Muxtar Respublikası Ailə Təsərrüfatları İctimai Birliyinin yaradılması, Sahibkarlığın İnkişafı Fondu tərəfindən ailə təsərrüfatlarına maliyyə dəstəyinin göstərilməsi, ticarət obyektlərində ailə təsərrüfatı məhsulları guşələrinin yaradılması belə təsərrüfat sahibləri qarşısında yeni imkanlar açıb. Həmçinin ailə təsərrüfatlarında istehsal edilən məhsulların keyfiyyət göstəricilərinin nəzarətdə saxlanılması, sertifikatlaşdırılması və marketinqi istiqamətində aidiyyəti təşkilatlar tərəfindən lazımi köməkliklər göstərilməsi, ailə təsərrüfatları məhsullarının tanıdılması məqsədilə “Naxçıvan Biznes Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətinin sərgi salonunda ailələrdə istehsal olunmuş müxtəlif növ və çeşiddə məhsulların nümayişi hər bir təsərrüfat sahibi üçün mühüm dəstək sayılır.

Təbii ki, yaradılmış şərait, göstərilən dövlət dəstəyi ailə təsərrüfatlarını daha yaxşı fəaliyyət göstərməyə, daxili bazarı keyfiyyətli məhsullarla təmin etməyə, rəqabətqabiliyyətli məhsul istehsal etməklə ixraca dəstək olmağa, dolayısı ilə muxtar respublikamızın təbliğinə yeni töhfələr verməyə çağırır. Bu mənada, ailə təsərrüfatları qarşısında da bir sıra vəzifələr dayanır. Hansı ki bu vəzifələr kimsə tərəfindən qoyulmur, işgüzarlığı, zəhmətə bağlılığı ilə seçilən, daim inkişaf etməyi düşünən təsərrüfat sahiblərinin fəaliyyət amalına çevrilir.

Bildiyimiz kimi, hazırda muxtar respublikamızdakı ailə təsərrüfatlarının böyük əksəriyyətinin fəaliyyəti kənd təsərrüfatı ilə bağlıdır. Bu da təbiidir. Çünki muxtar respublika iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir, əhalinin 70 faizdən çoxu kəndlərdə yaşayır və aqrar sahə bizim üçün ənənəvi olduğundan ailə təsərrüfatlarının bu sahədə böyük təcrübəsi var. Ənənəvi kənd təsərrüfatı məhsullarının tədarükü və satışı payız dövrünə təsadüf etdiyindən ilin bu fəsillərində bazarda daha çox bolluq müşahidə olunur. Bu, təbiidir, amma düşünürük ki, yerli ailə təsərrüfatlarının fəaliyyətində mövsümiliyin aradan qaldırılması təmin edilsə, (əlbəttə, bəzi məhsulların istehsalı istisnadır) bu onlar üçün də faydalı olar. Hansı ki bu gün muxtar respublikamızda bunun üçün lazımi şərait mövcuddur. Müasir istixanaların yaradılması və ondan istifadə təcrübəsini, soyuducu anbarların fəaliyyətinin genişləndirilməsini buna misal çəkə bilərik.

Digər məsələ ailə təsərrüfatlarının öz məhsullarını həm daxili, həm də xarici bazarlarda tanıtmaq, təbliğ etməklə bağlıdır. Hamımıza məlumdur ki, Naxçıvan Muxtar Respublikasının ərazisində yetişdirilən meyvə-tərəvəz, göyərti məhsulları və sair, eləcə də təbii şəkildə bitən meyvə, giləmeyvə, müalicəvi bitkilər öz keyfiyyəti, insan orqanizminə çoxsaylı faydaları ilə seçilir. Yuxarıda da qeyd etdiyimiz kimi, muxtar respublikanın ticarət obyektlərində ailə təsərrüfatı məhsulları üçün müvafiq guşələrin yaradılması, kənd təsərrüfatı məhsulları yarmarkaları və festivalların təşkili bu məhsulların tanıdılmasında böyük rol oynayır. Ancaq məhsullarımızın,





geniş mənada, tanınması üçün bu gün müxtəlif ailə təsərrüfatı məhsulları brendlərinin yaradılması, həm də dövrün tələbidir. Brend məhsulların yaradılması haqqında əvvəlki yazılarımızda bəhs etmişdik. Ancaq düşünürük, bu məsələyə yenidən toxunmaq pis olmaz.

Hər şeydən əvvəl bunu bilməliyik ki, muxtar respublikamızda istehsal olunan kənd təsərrüfatı və ərzaq məhsullarının hamısı daxili bazarda (Naxçıvan, Bakı və digər bölgələrdə) “Naxçıvan məhsulları” ticarət nişanı ilə satışa çıxarılır. Xarici bazarlarda və sərgilərdə isə “Made in Azerbaijan” brendi altında təqdim olunur. Eyni zamanda bu Azərbaycan brendinin altında xeyli sayda yerli brend məhsullar satılır. Digər dünya ölkələrində də belədir. Bəzən elə olur ki, məhsulun birbaşa özünü tanıdan brend getdikcə məşhurlaşaraq aid olduğu ölkə brendini də üstələyə bilir. Məsələn, Almaniyanın “Mercedes-Benz” brendi haqqında düşünərkən heç zaman onun “Made in Germany” brendinin bir hissəsi olduğunu fikirləşmirik. Bizim bəhs etdiyimiz brendlər də istehsalçılar tərəfindən ailə təsərrüfatlarında istehsal olunan məhsullara veriləcək adları nəzərdə tutur. Təcrübi baxımdan Naxçıvanda yerli məhsulların təqdimatında el arasında geniş yayılmış ərazi adlarından istifadə olunur. Məsələn, Sədərək üzümü, Ordubad limonu, Şahtaxtı qovunu, Nehrəm pendiri və sair. Ancaq bu adlar daxili bazar üçün səciyyəvidir. Bu gün biz məhsulumuzu geniş şəkildə tanıtmaq və ya xarici bazarlara ixrac etmək istəyiriksə, o zaman brend adlar daha münasib sayılır. Yeri gəlmişkən, bunu da vurğulamaq lazımdır ki, brend, sadəcə, məhsula ad vermək deyil. Bir məhsulun (xüsusilə qablaşdırılan) brendləşməsi illərlə zaman tələb edir və onun arxasında böyük zəhmət, qətiyyət dayanır. Yəni bu gün biz elə məhsul istehsal etməliyik ki, xarici bazarlarda istehlakçılar onlarla eyniadlı məhsul içərisində bizim məhsulumuzu seçsin və həmin məhsulu başqaları üçün də tövsiyə etsin. Əslində, bu, çox iddialı səslənsə də, Naxçıvanın buna potensialı var. Çünki Naxçıvanın məhsulları keyfiyyətinə görə bütün dövrlərdə hamı tərəfindən bəyənilib və indi də belədir. Brendin əsas “işi” keyfiyyət və inandırmaq olduğundan bizim məhsullarımız buna tam iddialı sayıla bilər. Bu baxımdan brend həm də müştəriyə verilən söz və bu sözün daim yerinə yetirilməsidir. Unutmayaq ki, yerli məhsullarımızın xarici bazarlarda özünə yer tapması qədim diyarımızın, bütövlükdə isə Vətənimizin təbliği üçün mühüm amil sayılır.

Digər bir məsələ isə istehsal olunan ailə təsərrüfatı məhsullarının fərqli istehlakçı kütlələrinə xitabən qablaşdırılmasıdır. Məsələn, sovet dövründə muxtar respublikada qida üçün nəzərdə tutulan duz istehsalı yalnız bir növdə – rəngsiz kağız qablaşdırmada üzərində “Xörək duzu” yazılmaqla satışa çıxarılırdı. İndi isə Naxçıvan duzları müxtəlif çəki və qablaşdırmalarda, həm də fərdi mətbəxlərdə, böyük yeməkxanalarda, səyahətdə istifadəsi nəzərə alınaraq istehsal olunur. Muxtar respublikamızda turizmin inkişaf etdirilməsi ilə bağlı dövlətin həyata keçirdiyi tədbirlərə töhfə olaraq ailə təsərrüfatçıları da istehsal etdikləri məhsullarda bu amili nəzərə ala bilərlər. Məsələn, əcnəbi turistlərə birdəfəlik istifadə üçün kiçik qablaşdırmada bal, kompot, mürəbbə, turşu, meyvə qurusu, yeməklərdə ədviyyat kimi istifadə olunan pencər quruları və digər məhsullar təqdim edə bilərlər. Müxtəlif ölçülərdə qablaşdırılan belə məhsullardan turistlərə getdikləri ölkələrə hədiyyə olaraq apara bilmələri üçün təklif edilə bilər. Bütün bunları nəzərə alaraq gəldiyimiz nəticə bundan ibarətdir ki, ailə təsərrüfatı sahibi olaraq biz hər bir məsələnin həllini dövlətdən gözləməməli, özümüz təşəbbüskar olmalıyıq. Nəzərə almalıyıq ki, dövlətimiz tərəfindən bu gün muxtar respublikamızın xarici ticarət əlaqələrinin genişləndirilməsi, logistika imkanlarının artırılması üçün böyük addımlar atılır. Bizə isə yaradılmış şəraitdən daha səmərəli istifadə etmək qalır.

**Səbuhi HƏSƏNOV**

# Əmək münasibətlərinin elektronlaşdırılması davam etdirilir

***Bu gün müasir dünyada məlumatların elektron müstəviyə inteqrasiyası sürətlə təşkil olunur və nəticədə, bu məlumatların əlçatanlığı və dəqiqliyi təmin edilir. Muxtar respublikamızda da son illər geniş vüsət alan bu proses, əmək münasibətlərinin təşkili diqqət mərkəzində saxlanılır. Elektron rəsmiləşdirilmə növü işəgötürənlə işçinin əmək münasibətinin şəffaflığına, həmçinin qeyri-formal məşğulluğun qarşısının alınmasına daha operativ nəzarət təmin edir. Azərbaycan Respublikasının 2013-cü il 27 dekabr tarixli Qanununa əsasən əmək qanunvericiliyinə köklü dəyişiklik edilərək Azərbaycan Respublikasının Əmək Məcəlləsinə “əmək müqaviləsi bildirişi” anlayışı daxil edilib.***

Bəs “əmək müqaviləsi bildirişi” nədir? Əmək müqaviləsi bildirişi əmək müqaviləsinin bağlanılmasının, ona dəyişiklik edilməsinin və ya xitam verilməsinin elektron informasiya sistemində elektron qaydada qeydiyyata alınması məqsədilə işəgötürən tərəfindən həmin elektron informasiya sisteminə daxil edilən elektron sənəddir. Dəyişiklikdən əvvəl işəgötürənlə işçi arasında bağlanılmış əmək müqaviləsi kağız üzərində rəsmiləşdirilirdisə, indi artıq müvafiq əmək müqaviləsi “Əmək müqaviləsi bildirişi üzrə elektron informasiya sistemi”nə daxil edildikdən sonra hüquqi qüvvəyə minir.

Əmək münasibətinin elektron informasiya sistemi vasitəsilə rəsmiləşdirilməsinin başlıca üstünlüyü işçinin qeyri-formal məşğulluğa cəlb olunmasının qarşısının alınmasına operativ nəzarəti təmin etməkdirsə, digər tərəfdən işçi ilə bağlanmış əmək müqaviləsinin Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun rəsmiləşdirilməsindən ibarətdir. Belə ki, əvvəllər əmək müqaviləsi kağız üzərində rəsmiləşdirilərkən rast gəlinən minimum əməkhaqqından az əməkhaqqının ödənilməsi, iş saatlarının və məzuniyyət müddətlərinin düzgün qeyd olunmaması, əmək müqavilələrinə əsassız xitam verilməsi halları elektron informasiya sisteminin tətbiqindən sonra minimuma enib. Həmçinin əvvəllər rast gəlinən işəgötürənlə bağlanılmış əmək müqaviləsinin nüsxəsinin işçiyə təqdim edilməməsi, yaxud da itirilməsi əmək mübahisələrində işçinin əmək hüququnu tam şəkildə müdafiə edə bilməməsinə səbəb olurdusa, artıq işçi elektron informasiya sistemində müvafiq əmək müqaviləsi bildirişlərini asanlıqla əldə edə bilir. Elektron sistem əmək münasibətləri üzrə işəgötürənlərin də işini xeyli asanlaşdırıb. Belə ki, sistem vasitəsilə işçilərin reyestrinin aparılması və nəzarəti daha da təkmilləşdirilib ki, xüsusilə işçi sayı çox olan iri müəssisələr bundan faydalanırlar.

Əmək münasibətlərinin elektron informasiya sistemi vasitəsilə tətbiqinə başlanıldıqdan sonra bu sahədə neqativ halların qarşısının alınmasına yönələn tədbirlər daha da sərtləşdirilərək qanunvericiliyə olunmuş ciddi dəyişikliklərlə işəgötürənlərə əlavə məsuliyyətlər müəyyən edilib. Belə ki, artıq işçilərin qeyri-formal məşğuluğa cəlb olunması inzibati məsuliyyətlə yanaşı, cinayət məsuliyyəti də yaradır. Bununla bağlı Cinayət Məcəlləsinə edilmiş müvafiq dəyişikliyə əsasən Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən on nəfər və ondan çox işçinin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə işəgötürən yeddi min manatdan on min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Həmçinin İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxsləri hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə fiziki şəxslər min manatdan iki min manatadək məbləğdə, vəzifəli şəxslər üç min manatdan beş min manatadək məbləğdə, hüquqi şəxslər iyirmi min manatdan iyirmi beş min manatadək məbləğdə cərimə edilir.

Məhz belə faktların aşkarlanması baxımından əmək müqaviləsi bildirişi üzrə elektron informasiya sisteminin tətbiqi mühüm əhəmiyyət daşıyır. Qeyd edək ki, muxtar respublikada tətbiqinə 2018-ci ildən başlanılan əmək müqaviləsi bildirişi üzrə elektron informasiya sistemindən işəgötürənlər bu gün geniş şəkildə istifadə edir. Sistemin tətbiqi ilə bağlı mütəmadi olaraq dövlət və qeyri-dövlət müəssisələrinin iştirakı ilə maarifləndirmə tədbirləri həyata keçirilir, həmçinin onlara metodik köməkliklər göstərilir. Eyni zamanda əmək müqaviləsi bildirişləri elektron informasiya sisteminə daxil edilərkən yaranmış suallar *255* qaynar xətt vasitəsilə operativ cavablandırılır. Sistemdən istifadəyə dair hazırkı statistikaya əsasən muxtar respublika üzrə 37535-i dövlət, 11838-i isə özəl müəssisələrdən olmaqla, ümumilikdə, 49373 işçinin əmək müqaviləsi bildirişi elektron informasiya sisteminə daxil edilib. Əldə edilən bu nəticələrlə yanaşı, işçilərlə əmək münasibətlərinin elektron informasiya vasitəsilə rəsmiləşdirilməsinə dövlət nəzarətini həyata keçirmək məqsədilə mütəmadi olaraq Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən monitorinqlərin təşkili də davam etdirilir.

Sonda onu da əlavə edək ki, işəgötürənlərin və işçilərin sözügedən sistemdən istifadəsini asanlaşdırmaq məqsədilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəsmi internet saytında *(sosial.nmr.az)* maarifləndirici videoçarx yerləşdirilib. Bununla yanaşı, sistemin fəaliyyətinə dair maarifləndirici məlumatlar mütəmadi olaraq kütləvi informasiya vasitələrində işıqlandırılır.

**Elnar HÜSEYNOV**
***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin rəisi***

*Naxçıvana gəldiyim ilk il idi... Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Türk-islam dünyasının elmi və ictimai fikrinin inkişafına böyük töhfələr verən görkəmli Azərbaycan mütəfəkkiri Nemətullah Naxçıvaninin araşdırılması və əsərlərinin üzə çıxarılması üçün 2018-ci il 29 oktyabr tarixli Sərəncam imzaladı. Bu sərəncamın içimdə yaratdığı xoşbəxtliyi və həyəcanı, minnətdarlıq duyğusunu təsvir edə bilmirəm. Dövlət keçmişi ilə ayaqdadır. Keçmişi olmayan bir ölkənin gələcəyi yoxdur. Naxçıvanın elm, mədəniyyət sahəsində bu sərəncamın dəyəri indilik, bəlkə də, tam olaraq dərk edilə bilməsə də, yaxın gələcəkdə ölkənin elminə, fikir və düşüncələrinə nə qədər böyük töhfə verəcəyini birlikdə görəcəyik. Bu möhtəşəm və vacib addıma görə Ali Məclis Sədrinə minnətdarlıq hisslərimi sözlə ifadə etməkdə çətinlik çəkirəm.*

# Qədim diyarın fəxri Nemətullah Naxçıvani




Şübhəsiz ki, Naxçıvanın mədəni həyatına təsir edən alim təkcə Nemətullah Naxçıvani deyildir. Naxçıvan sivilizasiyasına çoxsaylı alimlər təsir göstərmiş və möhtəşəm izlər qoymuşlar. Zamanla bunlar da ortaya çıxarıldıqda və əsərləri ilə müasirlərimizə çevrildikdə, tarixlə bağımızı daha əsaslı şəkildə bərpa edəcək və soykökümüzə dönəcəyik.

Baba Nemətullahın həyatı, əsərləri və gəzdiyi yerlər haqqında danışmayacağam. Çünki bunlar kiçik bir məqalənin hüdudlarını aşar. Sərəncamın icrasından sonra bu barədə maraqlı elmi-tədqiqat işləri aparılmaqdadır. Mən onun təsəvvüf yönü və ən vacib əsəri olan təfsirindəki şərhlərinə aid iki məsələyə toxunmaq istəyirəm.

Nemətullah Naxçıvani sufi bir alim idi. Təsəvvüf nədir, bunun mənası nədir və kimlərə sufi deyilir kimi sualları cavablandırmaq uzun bir araşdırmadır. Mən, sadəcə, təsəvvüf haqqında bir neçə kəlmə məlumat verməklə kifayətlənəcəyəm. Təsəvvüf haqqında çox fikirlər söylənilir. Bunlardan bəziləri belədir: "Pis vərdişləri tərk etmək və yaxşı vərdişlərə yiyələnmək", "Həqiqətlə və Onun hüzurunda olmaqdır", "Təsəvvüf başdan ayağa ədəbdir", "Nəfisdən uzaq, Haqq ilə sonsuz", "Təmiz bir qəlbi, saf ürəyi olmaqdır", "Hər kəsin yükünü daşımaq, heç kimə yük olmamaqdır", "Heç kimdən inciməmək, heç kimi incitməməkdir". Bu izahlara baxdığımızda təsəvvüfü hər bir sufinin öz daxili aləminə uyğun mənalandırdığı başa düşülür. Təsəvvüfü, qısaca, belə izah etmək mümkündür: "İnsana Allahı görmüş kimi ibadət həzzinə çatmağın yolunu göstərən elmdir". Təsəvvüf Mövlana Cəlaləddin Ruminin "Ya olduğun kimi görün, ya da göründüyün kimi ol" sözləridir.

Bütün bunlardan da anlaşıldığı kimi, bir sufi sözləri ilə deyil, davranışları ilə seçilən bir insandır. Başqa sözlə, danışmaqdansa, hal və davranışı ilə insanlara nümunə olan, gözəl olanı üzə çıxaran şəxsdir. Bu xüsusiyyət çox az insanın əldə edə biləcəyi nümunəvi bir fəaliyyətdir. Çünki insan bir çox şeyi öyrənə bilər, amma bildiyini özündə cəmləşdirə bilmirsə, həyatında əks etdirə bilmirsə, bunun bir əhəmiyyəti olmayacaqdır.

Bu gün müasir təhsil sistemi davranışı, şəxsi xüsusiyyətləri və ya bəzi xüsusi keyfiyyətləri ilə seçilən şəxslərin nümunə götürülməsini, təqdir olunmasını ən uğurlu metod kimi qəbul edir. Belə ki, evdəki valideynlər, məktəbdəki müəllimlər, iş həyatındakı idarəçilər... nümunəvi şəxsiyyət olduqda cəmiyyətin bütün üzvləri onlardan örnək götürəcək, yalnız quru biliklərlə kifayətlənməyəcək, hal və davranışlarını mənəvi cəhətdən inkişaf etdirəcəklər.

Baba Nemətullah da məhz zahiri və daxili aləmi ilə eyniyyət təşkil etmək, olduğu kimi görünmək, inandığı dəyərlərə səmimi qəlbdən bağlanma qabiliyyətinə sahib olan nümunəvi bir tarixi şəxsiyyətdir. Təfsirində tez-tez bu məsələyə toxunar, öz dövründə yaşamış və özlərini peyğəmbərlərin varisi hesab edən, sözü ilə əməli bir olmayanları tənqid edərdi.

O, "Əl-Fəvatih-ül-İlahiyyə-vəl-Məfatih-ül-Qeybiyyə" əsərində yazırdı: "Mən Yaradan və onun yaratdığı varlıqlar haqqında danışanda nə dediyi aydın olmayan saxta sufi deyiləm. Əksinə, mən forma və adətlərə bağlı olmayan həqiqi sufilərin xidmətçisiyəm".

Baba Nemətullahın təfsiri bir çox xüsusiyyəti ilə seçilir. Təfsirində diqqəti çəkən vacib bir xüsusiyyət hər surəni təfsir edərkən bunu bir ön söz (fatihə) mahiyyətində bir giriş ilə başlaması və oxucuya nəsihəti (xətimə) ilə bitirməsidir. Surələrin əvvəlindəki "Bismillahirrəhmanirrəhim" cümlələrinin hər biri həmin surənin mənasına uyğun şəkildə məna verir və təfsir edilir.

"Qurani-Kərim"də ilk surə "Fatihə"dir. Bu surə müqəddəs kitabımızın bir müqəddiməsidir. Naxçıvani bu surənin ilk ayəsini belə şərh edir: "Üstün-metafizik aləmdən varlıq aləminə gəldikdə, Allahın təkliyi "Allah" sözü ilə izah edilir. Zira onu başqa bir sözlə təsvir etmək mümkün deyildir. Yaradılan və gələcəkdə yaradılacaq hər bir varlığın həqiqəti, Allahın varlığı və birliyinin adları və xüsusiyyətlərinə daxildir. Ürəyi açıq olanlar bu varlıqlara "mütləq düzəlişlər, dəyişməz həqiqətlər" deyirlər... Ər-Rəhman kəlməsi Zat-ı İlahi, bütün adları, atributları, bilik və fəaliyyətləri ilə özünü büruzə verərək, varlıqları mərhələlərlə, müxtəlif xüsusiyyətlərdə, fərqli rənglərdə və təbiətdə, saysız-hesabsız forma və görünüşdə yaratdıqda və bununla da sonsuz gücünü və qüdrətini göstərdikdə, bu "Rəhman" adı ilə ifadə edilir. Ər-Rəhim adı, dəftər səhifələrinin bağlanması kimi çoxsaylı hissədən ibarət olan varlıq dünyasının məhv etdikdə, Rəhim adı ilə izah edilən əbədi varlığını göstərir" ("Əl-Fəvatih-ül-İlahiyyə-vəl-Məfatih-ül-Qeybiyyə" əsərindən).




Naxçıvani, müqəddəs "Qurani-Kərim"də ikinci surə – "sığır" mənasını verən "Bəqərə" surəsinin əvvəlindəki "Bismillahirrəhmanirrəhim" ifadəsini belə şərh edir: "Tək və yeganə olan, yaratdığı varlıqların heç birinə möhtac olmayan, dünyanı və varlıqları öz adları və sifətləri ilə əhatə edən, onları içinə alan Allahın adı ilə. Allah öz ruhunun və xüsusiyyətlərinin təzahürü ilə, varlığının nurunu bəxş edərək və köməyini çatdıraraq qullarına qarşı Rəhmandır. Allah mömin qullarını din dilində cəhənnəmin iki adı olan Sair (alovlu atəş) və Cahim (çılğın atəş) adlandırılan axirətdəki qaranlıqdan qurtararaq razı qalacaqları bir cənnətə, xoşbəxtlik və əmin-amanlıq evinə çatdıran Rəhimdir ("Əl-Fəvatih-ül-İlahiyyə-vəl-Məfatih-ül-Qeybiyyə" əsərindən).

"Kövsər" surəsi isə adını ilk sətirlərdəki "kövsər" sözündən almış, "çoxluq" mənasını verən və çox dəyərli və çox vacib şeyləri ifadə edən "kəsrət" söz kökündən götürülmüşdür. Baba Nemətullah, "Kövsər" surəsinin əvvəlini belə təfsir edir: "Özünü bir güzgü kimi əks etdirməsi üçün Peyğəmbərini meydana gətirən və lütfünün bütün gözəlliklərini və ali xüsusiyyətlərini göstərən Allahın adı ilə. Allah Zülcəlal, Həzrəti Məhəmmədi (s.a.s) Peyğəmbər olaraq göndərərək bütün canlılara mərhəmətlə yanaşdı, beləliklə, qullarını sülh və əmin-amanlıq (cənnət) yurduna çatdırdı. Hörmətli qullarını hər cür xəyal və xəyal qaranlığından çıxarıb vəhdətin ən yüksək nöqtəsinə gətirən Rəhim Allahdır ("Əl-Fəvatih-ül-İlahiyyə-vəl-Məfatih-ül-Qeybiyyə" əsərindən).

Sonda Nemətullah Naxçıvaninin "İxlas" surəsi ilə bağlı təfsirlərinə də toxunmaq istərdim. "İxlas" surəsi mənbələrdə təsbit edilən 20-dən çox ada sahibdir. Bununla birlikdə İslam dininin təməl prinsipi geniş şəkildə tövhid inancının ifadəsi olan "İxlas" olaraq bilinir. Naxçıvani bu surənin əvvəlini təfsir edərkən deyir: "Görünüşü və yaratdığı şeyləri anlamasına baxmayaraq, şəxsiyyəti və künhü bilinməyən Allahın adı ilə. Şəxsiyyətinin xüsusiyyətlərini və keyfiyyətlərini qullarına izah edən Allah Rəhmandır. Varlığının və birliyinin sirlərini və incəliklərini öyrətməklə seçilən qullarına rəhbərlik edən Allah Rəhimdir ("Əl-Fəvatih-ül-İlahiyyə-vəl-Məfatih-ül-Qeybiyyə" əsərindən).

Bu bir neçə nümunədən göründüyü kimi Nemətullah Naxçıvani dərin biliklərə sahib müstəsna bir alimdir. Yazdığı əsərlər araşdırıldıqda, qədim diyar Naxçıvanın necə məhsuldar bir elm hövzəsi olduğu daha yaxşı anlaşılacaqdır. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsində Naxçıvaninin təfsirinin Azərbaycan dilinə tərcüməsi və nəşri bu qədim diyarda milli-mədəni irsə bugünkü dövlət qayğısından, həssas münasibətdən xəbər verir. Bu, Naxçıvanın görkəmli tarixi şəxsiyyətlərinin, elm xadimlərinin unudulmadığını, onların elmi-ədəbi, siyasi irsinin dərindən tədqiq edilərək gənc nəslə təbliğ olunmasının daim diqqət mərkəzində olduğunu təsdiq edir. Əminik ki, Naxçıvaninin digər əsərləri də tərcümə olunmaqla gələcəkdə daha əhəmiyyətli tədqiqat əsərləri ərsəyə gələcək. Bu müqəddəs işdə hər kəsə uğurlar arzu edirik.

**Zəfər KOÇ**
***Türkiyənin Naxçıvan Muxtar Respublikasındakı Baş Konsulluğunun dini məsələlər üzrə attaşesi***

*Tarixi abidələrimiz milli sərvətimizdir*

# Böyük İpək Yolundakı qədim sığınacaq

***Ulu yurdumuz Naxçıvan bəşər sivilizasiyasının ən qədim ərazilərindəndir. Qədimliyi sübut edən isə tarix və mədəniyyət abidələridir ki, bununla da xalqımızın minilliklərboyu bu torpaqlarda yaşadığı təsdiq olunur. Qədim Naxçıvan Şərqlə Qərb arasında mühüm karvan yolları üzərində yerləşdiyindən müxtəlif mədəniyyətlərlə geniş əlaqədə olmaqla yanaşı, həm də xalqımızın tarixi keçmişini parlaq şəkildə əks etdirən tarixi abidələr və yaşayış məskənləri ilə zəngindir. Karvan yolları üzərində yerləşən maddi mədəniyyət nümunələrindən biri də "Fərhad evi" adı ilə tanınan arxeoloji abidədir. Bu təbii daş evi yurdumuzun ilk memarlıq abidələri sırasına aid etmək olar.***



Naxçıvan Muxtar Respublikasının ən ucqar dağlıq rayonu sayılan Şahbuzun ərazisində yaşı minilliklərlə ölçülən tarixi-memarlıq abidələrinin zənginliyi bu əraziyə çoxlu turist cəlb edir. Biçənək kəndindən şərqdə, Batabat yaylağında "Fərhad evi" adlı abidə də qiymətli memarlıq nümunəsi kimi qorunmaqdadır. Bu abidə Naxçıvan-Laçın-Yevlax avtomobil yolundan sağda, Zorbulaqdan, təqribən, 1 kilometr şərqdə yerləşir. Aparılan tədqiqatlar Fərhad evi abidəsinin eramızdan əvvəl I minilliyin sonlarına və eramızın əvvəllərinə aid olduğunu söyləməyə imkan verir.

Bu gün yolu Şahbuza düşən hər bir turist Fərhad evini də görməyə can atır. Fərhad evi liparit tuf qayada külüngtipli metal alətlə qazılmış dörd otaqdan ibarətdir. Otaqlar bir istiqamətdə gedən düz keçid yolu vasitəsilə birləşir. Tavanlar tağ şəkilli, döşəmələr oval planlıdır. Divarlarda şam, yaxud çıraq qoymaq üçün kiçik taxçalar qazılmışdır. Divarların dibində isə səkilər yonulmuşdur. Fərhad evinin axırıncı otağının tavanında havanı tənzimləmək üçün baca açılmışdır.

Giriş qapısının hündürlüyü 2,2, eni isə 1,5 metrdir. Birinci otağın sağ küncündə quyu və ocaq yeri var. Burada divarlara baxanda ocaq hisləri müşahidə edilir ki, bu da buranın uzunmüddətli yaşayış məskəni olduğunun sübutudur. Giriş hissəyəni birinci otaq, təqribən, 2 metr enində, 3 metr uzunluğundadır.

Fərhad evinin qapısının sağındakı qayanın üzərində uzunsaçlı kişi başı, solunda isə qadın rəsmi həkk olunmuşdur. Qayanın şimal-şərq yamacında buradan keçən qədim karvan yolunun səviyyəsindən 2 metr hündürlükdə uzunluğu 5 metr, eni 80 santimetr, dərinliyi 30 santimetr olan səki qazılmışdır. Səki boyunca 3 sətirlik qədim mixi yazısı həkk olunmuşdur. Oxunmaz vəziyyətə düşmüş yazıda bu abidənin nə zaman və hansı sənətkar tərəfindən yaradıldığı barədə məlumat olduğu güman edilir. Yaxınlıqdakı kurqantipli abidənin üzərindəki vişap isə oğurlanmışdır. Bu təbii daş evin qapısının da daşdan olduğu, sonradan mənfur ermənilər tərəfindən sökülüb aparıldığı deyilir.

Əsrlərin yadigarı olan bu abidənin içərisinə nəzər yetirdikdə otaqların heyrətamiz zəkaya və böyük fiziki gücə malik bir insan tərəfindən ustalıqla yonulduğu aydın olur. Dəqiq və düzgün hesablamalarla qurulan və həndəsi fiqurlu xatırladan otaqlarda insanların rahat gecələməsi üçün bir çox ünsürlər nəzərə alınmışdır.

Qədimdə Naxçıvan-Laçın-Yevlax yolu Yaxın Şərqi Cənubi Qafqazla əlaqələndirən ən əlverişli yollardan sayılırdı. Fərhad evi də elə buna görə dayanacaq məntəqəsi kimi istifadə edilirmiş.

Orta əsrlərdə Naxçıvan-Batabat yolunda gediş-gəliş artdığından Fərhad evindən bir qədər şimalda iri karvansara da tikilmişdi. Yerli əhali bunu Şah Abbas karvansarası adlandırmışdı.

Batabat aşırımındakı Fərhad evi Şəki, Qarabağ, Naxçıvan, Təbriz İpək Yolu üstündə yerləşmiş və ticarətlə məşğul olan insanlar üçün mehmanxana rolunu oynamışdır. Fərhad evindən buradan keçən karvan əhli yayın istisindən, qışınsa soyuğundan qorunmaq üçün də istifadə etmişdir. Bu da onun karvansara kimi istifadə olunması fikrini gücləndirir.



Son olaraq qeyd edim ki, abidənin "Fərhad evi" adlandırılması ilə bağlı olaraq el arasında xeyli rəvayət və əfsanə dolaşır. Onlardan biri böyük Azərbaycan şairi Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasındakı "Fərhad" adlı qəhrəman ilə bağlıdır. Fərhad öz sevgisi üçün dağları yarıb yol açmışdı. Xalq belə böyük bacarıq və səbir hesabına başa gələn sənət əsəri yaradan sənətkara hörmət əlaməti olaraq bu abidəyə "Fərhad evi" adını vermişdir.

Azərbaycanın memarlıq incilərindən daş abidələr dedikdə ilk ağıla gələn məhz Fərhad evidir. Minilliklərin sınağından çıxmasına baxmayaraq, öz möhtəşəmliyini hər zaman qoruyub saxlayır. Təqribən, 2000 il yaşı olan Fərhad evi Qafqazda nadir sənət abidələrindən sayılır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" Sərəncamı, bütünlükdə, abidələrin qorunmasını elmi əsaslarla təşkil etməyə imkan vermişdir. Həmçinin tarixi dəyərlərimizi qorumaq bir vətəndaş olaraq hər birimizin mənəvi borcudur. Çünki şanlı tariximizlə yaşıd olan dəyərlərimiz həm bizim keçmişimiz, həm də gələcəyimizdir. Bir millət öz tarixinə və tarixi dəyərlərinə nə qədər sahib çıxsa, o qədər də varlığı mövcud olacaq. Hər bir xalqın qədimliyi, ululuğu onun abidələrində yaşayır. Əcdadlarımızın bizə yadigar qoyduğu abidələri bərpa etmək, gələcəyə keçmişi aparmaq, xalqımızın ənənələrini və tarixini qorumaq hər birimizin vətəndaşlıq borcudur.

**Ülkər HƏSƏNZADƏ**
***Naxçıvan Dövlət Universitetinin Bələdiyyə və turizm kafedrasının müəllimi***

# 2020-ci ilin quruculuq ərməğanları

## Müasirləşən kəndlərimiz


Babək rayonunun Nəcəfəlidizə kəndi


Şərur rayonunun Qarabürc kəndi


Şərur rayonunun Muğancıq-Mehrab kəndi


Ordubad rayonunun Vənənd kəndi


Culfa rayonunun Camaldın kəndi


Şərur rayonunun Məmmədsabir kəndi

Kəndim, balacasan, çox balacasan, – deyirdi Xalq şairimiz Məmməd Araz. Nisgilini də gizlətmirdi: Adın yox dünyanın xəritəsində. Şairə daha çox təsir edən isə o idi ki:

*Atılıb qalmısan gözlərdən uzaq,*
*Çaylı, baldırğanlı dağ dərəsində.*

Bəs bu gün? Bir ucu Ordubadın Gəmiqayası, bir ucu Şahbuzun Batabatı, Culfanın Əlincəqalası, Kəngərlinin Çalxanqalası, Şərurun Şahbulağı boyunca yerləşən kəndlərimizdə olmusunuzmu? O yaşayış məntəqələrinə gedən yollar ilk andan hər şeyi deyir. Qara örtük salınaraq rayon mərkəzlərimizə gedən magistrallardan seçilməyən yollar, yollara paralel olaraq dağların ətəklərinə sığınaraq ucqar kəndlərimizə çəkilmiş təbii qaz xətləri, yol kənarlarındakı yaşıllıqlar insan qəlbinə bir hərarət gətirir. “Mədəniyyət, inkişaf yoldan başlanır” deyiminin doğruluğuna bir daha inanırsan. Qət etdiyin ünvanlar da bu qənaəti təsdiqləyir: Kompleks quruculuq tədbirləri həmin yaşayış məntəqələrinə qəsəbə, şəhər görkəmi verib. Bu, həmin ünvanlarda yaşayan insanlara böyük qayğının ifadəsi olmaqla, onların yurd yerinə bağlılıqlarını daha da artırıb. Və düşünürsən: Belə yerdə yaşamağa nə var ki?

**Muxtar MƏMMƏDOV**

### Sosial qayğıya ehtiyacı olan şagirdlərə hədiyyələr verilib

*Ordubad şəhər internat tam orta məktəbində sosial qayğıya ehtiyacı olan məktəblilərlə görüş keçirilib.*



Tədbirdə Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov, Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov, Ailə Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış ediblər. Bildirilib ki, muxtar respublikada yaşayan bütün uşaqlara, o cümlədən valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara diqqət və qayğı göstərilir. Bunun nəticəsidir ki, bu kateqoriyadan olan uşaqlara məktəbli formaları və dərs ləvazimatları verilir, həmçinin qış geyimləri ilə təmin olunurlar. Onların asudə vaxtlarının səmərəli keçirilməsi məqsədilə tarix-memarlıq abidələrinə, muzeylərə, istirahət guşələrinə ekskursiyaları təşkil edilir, uşaqlara teatr tamaşaları, film nümayiş olunur, həmçinin yay tətili günlərində istirahətlərinin qayğısına qalınır.

Sonra sosial qayğıya ehtiyacı olan məktəblilərə hədiyyələr verilib.

***Dünən muxtar respublika ümumtəhsil məktəblərinin IX-XI siniflərində təhsil alan şagirdlər üçün sınaq imtahanları keçirilib. İmtahanlar buraxılış imtahanı formatında təşkil edilib.***

### Sınaq imtahanları keçirilib



IX siniflər üçün imtahanda Azərbaycan dili fənni üzrə 2 mətn – hər mətndən 5 qapalı, 5 açıq test tapşırıqları, xarici dil üzrə 1 dinləmə mətni və 1 yazılı mətn olmaqla, 15 test tapşırığı, riyaziyyat fənni üzrə isə 10 açıq test tapşırığı verilib.

X və XI siniflərdə isə şagirdlərə Azərbaycan dili, xarici dil fənlərinin hər biri 30 sual, riyaziyyat fənni üzrə isə 25 sual təqdim olunub. Sualları cavablandırmaq üçün məktəblilərə 3 saat vaxt verilib.

Sınaq imtahanları buraxılış imtahanı formatında olduğuna görə IX siniflər üçün I mərhələ maksimum 90 bal, X və XI siniflər üçün isə maksimum 300 bal təşkil edir. Nəticələr 1 həftə ərzində elan olunacaqdır.

**Ülviyyə HACIYEVA**

### Sosial mədəniyyət layihəsi başa çatıb

***2020-ci ilin iyun ayından start verilən onlayn “Mədəniyyətin izi ilə” sosial mədəniyyət layihəsinə 10 dekabr 2020-ci il tarixdə yekun vurulub, qaliblər müəyyənləşdirilib.***

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə həyata keçirilən layihə Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin təbliği, xüsusi istedada malik insanların axtarışı və onların üzə çıxarılması, unudulmaqda olan milli-mənəvi dəyərlərin tədqiq edilməsi və ictimaiyyətə təqdim olunması, muxtar respublika ərazisindəki abidələrin və diyarımızda ayrı-ayrı bölgələrin tanıdılması məqsədi daşıyır.

Nazirliyin tabeliyində fəaliyyət göstərən müəssisələrin əməkdaşları ilə yanaşı, muxtar respublikanın müxtəlif bölgələrinin sakinlərinin də iştirak etdiyi bu sosial layihəyə müxtəlif formatda materiallar – videoçarxlar, videoslaydlar, filmlər, musiqi nömrələri, tanıtım çarxları, rəsm əsərləri, araşdırma xarakterli məqalələr, mətnlər qəbul edilib. 2020-ci il 22 iyun tarixdən dekabrın 10-dək, ümumilikdə, 44 layihə qəbul edilib.

Ekspertlər tərəfindən həmin layihələr üzrə qiymətləndirmə aparılıb, 12 layihə yekun baxışına qəbul edilib.

Layihənin yekun baxışına qəbul edilmiş materialların münsiflər heyəti tərəfindən dəyərləndirilməsi aparılıb. Səyyar Məmmədovun “Şahbəzəmə” filmi, Aidə İbrahimovanın “Bədii tikmələr” videomaterialı, Səməd Canbaxşıyevin “Kosabəzəmə” folklor nümunəsi, Elnurə Abbasovanın “Azərbaycan milli musiqi alətləri: tulum” videoslaydı və Nizami Əzizəliyevin “Daşişləmə” analitik təhlili layihənin qalibləri olub. Qaliblər nazirliyin diplomları ilə təltif edilib.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 972